Təsdiq edirəm
ADMİU-nun rektoru
__________Professor Ceyran Mahmudova
“ 12 ” “ sentyabr ” 2025-ci il

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

ADMİU

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**7008003 – Sosial iş ixtisasının**
**Gənclərlə iş ixtisaslaşması**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin
3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının
12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.

BAKI – 2025

## 1. Ümumi müddəalar

**1.1.** Magistratura səviyyəsinin 7008003 – Sosial iş ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı" na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

**1.2.** Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

**1.3.** Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

**1.4.** Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadan kənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

**1.5.** Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

**2.1.** Təhsil proqramının sonunda məzun aşağıdakı ***ümumi səriştələrə*** yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə

dəyərləndirmək;

- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri- mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

**2.2.** Təhsil proqramının sonunda məzun aşağıdakı ***peşə səriştələrinə*** yiyələnməlidir:

**2.2.1.** Gənclərlə iş ixtisaslaşması üzrə:

- Azərbaycanda gənclərin məşğulluğu sahəsində dövlət siyasətini dünya ölkələrinin qabaqcıl təcrübəsi ilə müqayisəli təhlil etmək və təkliflər hazırlamaq;
- gənclərlə psixososial iş prosesində innovativ texnologiyaların tətbiq imkanlarını təhlil etmək və onların konkret hallarda istifadəsi ilə bağlı qərarlar vermək;
- gənclərlə sosial iş sahəsində deviant və delikvent davranışın qarşısının alınması məqsədilə profilaktik və terapevtik texnologiyaları tətbiq etmək;
- gənclərin məşğulluğu və özünəməşğulluğu sahəsində müvafiq beynəlxalq və yerli proqramları tətbiq etmək, o cümlədən üçüncü sektorun sosial tərəfdaş kimi bu istiqamətdə iştirakını təmin etmək;
- gənclərlə sosial işdə liderliyi, kommunikasiyanın təşkilini, könüllülük fəaliyyətini praktik situasiyalara uyğun tətbiq etmək;
- yerli və beynəlxalq səviyyədə gənclərin sosial-iqtisadi təşəbbüslərinə yönəlmiş proqramların sosial iş çərçivəsində tətbiq imkanlarını qiymətləndirmək.

## 3. Təhsil proqramının strukturu

**3.1.** Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Gənclərlə iş | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |

**3.2.** Təhsil proqramı ixtisasdan (ixtisaslaşmadan) asılı olaraq 90 (1,5 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 2 | **Layihələrin idarə olunması**<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələləri ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır.* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | 54 |
| 3 | **Gənclərlə işdə tətqiqat metodları**<br>*Bu fənn gənclərlə bağlı sosial, psixoloji və mədəni proseslərin elmi tədqiqi üçün nəzəri və praktik yanaşmaları öyrədir. Fənn gənclərin sosial vəziyyətlərinin, ehtiyaclarının və problemlərinin araşdırılması, həmçinin gənclərlə bağlı siyasət və proqramların qiymətləndirilməsi üçün müasir tədqiqat metodlarının tətbiqinə fokuslanır.* | 6 |
| 4 | **Gənclərlə işdə etik və peşəkar davranış**<br>*Bu fənn tələbələrə iş mühitində etik dəyərlər, peşəkar davranış qaydaları, sosial münasibətlərin idarə olunması və əmək intizamının əsas prinsiplərini öyrətməyi hədəfləyir. Gənclərin peşə həyatında etik prinsiplərə uyğun davranması və komanda içində məsuliyyətli əməkdaş kimi formalaşması fənnin əsas məqsədidir.* | 6 |
| 5 | **Gənclərlə sosial iş texnologiyaları**<br>*Gənclərlə sosial işin texnologiyaları müasir cəmiyyətlərdə gənclərin sosial inkişafını və iştirakını dəstəkləyən xüsusi peşə sahəsidir. Bu sahədə çalışan mütəxəssislər müxtəlif yaş qrupları üçün ixtisaslaşır və fərdi, qrup və icma səviyyəsində sosial işin texnologiyalarını tətbiq edirlər. Onlar case work, qrup işi, sosial layihələr və onlayn platformalarda interaktiv təlim metodlarından istifadə etməklə gəncləri* | 6 |

| | | |
|---|---|---|
| | *aktiv və faydalı fəaliyyətlərə cəlb edir, onların sosial, psixoloji və mənəvi inkişafına dəstək göstərir.* | |
| 6 | **Ali məktəb pedaqogikası və psixologiya**<br>*Ali məktəb pedaqogikası və psixologiyası fənni ali təhsil müəssisələrində tədris-tərbiyə prosesinin elmi əsaslarını öyrədir. Fənnin məzmunu pedaqoji nəzəriyyələrin inkişafını, ali təhsildə müasir təlim metodlarını, tələbə və müəllim münasibətlərini, həmçinin təlimin psixoloji qanunauyğunluqlarını əhatə edir. Tələbələr bu fənn vasitəsilə ali məktəb mühitində tədrisin pedaqoji prinsipləri və psixoloji aspektləri barədə bilik əldə edirlər.* | 6 |
| 7 | **Gənclərlə işin təşkili metodları**<br>*Bu fənnin əsas məqsədi gənclərlə sosial, mədəni fəaliyyətin təşkili yollarını öyrətmək, gənclərin sosial inkişaf xüsusiyyətlərini, onların maraq və ehtiyaclarını, həmçinin gənclərlə işləyərkən tətbiq olunan müasir metod və texnologiyaları öyrətməkdir.*<br>*Fənnin tədrisi zamanı gənclərlə işin nəzəri əsasları, təşkilati formaları, layihə idarəçiliyi, sosial-mədəni fəaliyyətin planlaşdırılması və qiymətləndirilməsi prinsipləri öyrədilir. Eyni zamanda tələbələr gənclərin liderlik qabiliyyətlərinin inkişafı, sosial iştirakçılığın artırılması, könüllülük hərəkatı, mədəni tədbirlərin təşkili və sosial innovasiyalar sahəsində praktiki bilik və bacarıqlar əldə edirlər.* | 6 |
| 8 | **Gənclərlə işin hüquqi tənzimlənməsi**<br>*Bu fənn çərçivəsində tələbələr gənclərlə iş sahəsində hüquqi münasibətlərin əsaslarını, dövlət gənclər siyasətinin hüquqi bazasını, beynəlxalq və milli qanunvericilik aktlarını öyrənirlər. Fənn gənclərin hüquq və azadlıqlarının müdafiəsi, onların sosial müdafiəsi, məşğulluğu, təhsil və mədəniyyət sahələrində təminatları ilə bağlı hüquqi mexanizmləri əhatə edir. Tələbələr gənclərlə iş prosesində tətbiq olunan qanunların təhlili, hüquqi sənədlərin işlənməsi və praktik vəziyyətlərdə onların tətbiqi üzrə bilik və bacarıqlar qazanırlar.* | 6 |
| 9 | **Ümumi psixologiya**<br>*Bu fənni mənimsəyən magistrant psixologiya elminin əsas anlayış və prinsiplərini biləcək, psixikanın qanunauyğunluqlarını, idrak, emosional-iradi proseslərin mahiyyətini və şəxsiyyətin inkişaf mexanizmlərini elmi cəhətdən izah edə biləcək.*<br>*Tələbələr psixoloji nəzəriyyələri və yanaşmaları müqayisə etməyi, müxtəlif psixoloji tədqiqat metodlarını tətbiq etməyi bacaracaq, fərdi və sosial psixoloji hadisələri elmi müstəvidə təhlil edəcəkdir.*<br>*Onlar psixoloji biliklərin praktik vəziyyətlərdə tətbiq imkanlarını qiymətləndirəcək, fərqli psixoloji problemlərin həlli yollarını elmi əsaslarla izah edə biləcəklər.* | 6 |

| | | |
|---|---|---|
| 10 | **Gənclərlə işdə psixososial və iqtisadi dəstək yanaşmaları**<br>*Bu fənni mənimsəyən magistrant gənclərə psixososial və iqtisadi dəstək prinsiplərini biləcək, onların fərdi və sosial ehtiyaclarını qiymətləndirə biləcək. Tələbələr müxtəlif dəstək yanaşmalarını tətbiq etməyi bacaracaq, sosial və iqtisadi problemlərin həllində effektiv strategiyaları təhlil edəcək və uyğun dəstək mexanizmlərini seçə biləcəklər.* | 6 |
| 11 | **Fərdi və qrup yönümlü liderlik**<br>*Bu fənn çərçivəsində magistrant liderlik nəzəriyyələrini və prinsiplərini biləcək, həm fərdi, həm də qrup fəaliyyətlərində liderlik bacarıqlarını inkişaf etdirəcək. Tələbələr komanda idarəetmə, motivasiya və qərarqəbuletmə proseslərini qiymətləndirəcək, həmçinin fərdi və qrup yönümlü liderlik strategiyalarını praktik vəziyyətlərdə tətbiq edə biləcəklər.* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | 18 |
| 12 | **a) Gənclərin məşğulluğu və onun tənzimlənməsi**<br>*Bu fənn gənclərin əmək bazarında iştirakının xüsusiyyətlərini, məşğulluğun təmin olunması istiqamətində dövlət siyasətini və sosial-iqtisadi tənzimləmə mexanizmlərini öyrədir. Fənn çərçivəsində gənclərin əmək potensialının inkişafı, işsizlik problemləri, qeyri-formal məşğulluq, gənclərin sahibkarlıq fəaliyyətinə cəlb olunması, əmək bazarına inteqrasiya modelləri və beynəlxalq təcrübə təhlil edilir.*<br>*Tələbələrə gənclərin məşğulluğu ilə bağlı milli qanunvericilik bazası, sosial tərəfdaşlıq mexanizmləri, məşğulluq proqramlarının hazırlanması və həyata keçirilməsi prinsipləri haqqında biliklər verilir.*<br>**b) Gənclərin asudə vaxtının təşkili**<br>*Gənclərin asudə vaxtının təşkili sahəsində tələbələr müasir yanaşmaları və prinsipləri biləcək, gənclərin maraq və ehtiyaclarını nəzərə alaraq fərdi və qrup fəaliyyətlərini planlaşdırmaq və həyata keçirmək bacarığını inkişaf etdirəcək. Onlar həmçinin fərqli sosial və mədəni mühitlərdə fəaliyyətlərin effektivliyini qiymətləndirə biləcək və gənclərin yaradıcılıq, istirahət və sosial inteqrasiyasını dəstəkləyən metodları tətbiq edə biləcəklər.* | 6 |
| 13 | **a) Gənclərlə işdə beynəlxalq təcrübə**<br>*Tələbələr fərqli ölkələrin gənclərlə iş üzrə siyasət və proqramlarını öyrənir, beynəlxalq standart və yanaşmaları təhlil edə bilirlər. Onlar həmçinin beynəlxalq təcrübəni müqayisəli şəkildə qiymətləndirir və ölkəmizdə gənclərlə işdə tətbiq oluna biləcək effektiv strategiya və metodları tətbiq edə bilirlər.*<br>**b) Azərbaycanda gənclərlə işin dövlət siyasəti**<br>*Azərbaycan Respublikasında gənclərlə iş sahəsində dövlət siyasətinin* | 6 |

| | | |
|---|---|---|
| | *prinsipləri və hüquqi bazası bilinir, gənclərin sosial, mədəni və iqtisadi həyatını təmin edən dövlət proqramları qiymətləndirilə bilər. Tələbələr gənclərlə iş üzrə dövlət strategiyalarını təhlil edə bilir, siyasətin effektivliyini qiymətləndirir və praktik vəziyyətlərdə uyğun yanaşmaları tətbiq edə bilirlər.* | |
| 14 | **a) Gənclərlə işdə yumşaq bacarıqlar**<br>*Bu fənni mənimsəyən tələbə yumşaq bacarıqları biləcək, gənclərlə ünsiyyət və əməkdaşlıq bacarıqlarını bacaracaq, həmçinin sosial-mədəni mühitlərdə onların tətbiqini qiymətləndirəcək. Tələbələr liderlik, empatiya, münaqişələrin həlli və motivasiya kimi səriştələri mənimsəyəcək, gənclərlə işdə fərdi və qrup fəaliyyətlərini effektiv şəkildə həyata keçirə biləcəklər.*<br>**b) Gənclərin submədəniyyəti və gender**<br>*Bu fənn sahəsində tələbələr müasir nəzəriyyələri və anlayışları biləcək, gənclərin sosial davranış, dəyərlər və identiklik formalaşmasında submədəniyyətin rolunu təhlil edə biləcək. Onlar həmçinin gender məsələlərini qiymətləndirəcək, fərdi və qrup fəaliyyətlərində gender aspektlərini nəzərə alaraq sosial və mədəni prosesləri təhlil edə və uyğun yanaşmaları tətbiq edə biləcəklər.* | 6 |
| | **Təcrübə** | |
| ... | **Elmi-pedaqoji təcrübə** | 6 |
| **CƏMİ** | | **90** |

### 4. Proqramın və hər bir fənnin təlim nəticələri

**4.1.** Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

**4.2.** İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

**4.3.** İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

**4.4.** Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallara, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir.

**"Gənclərlə iş" ixtisaslaşması üzrə** aşağıdakı infrastruktur və resurs tələbləri də nəzərə alınmalıdır:

- Gənclərlə ünsiyyət bacarıqlarının tədrisi üçün video-analiz otaqları;
- Psixoloji müdaxilə texnologiyalarını dəstəkləyən test və təhlil platformaları;

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. Sosial iş ixtisası üzrə məzunlar əmək və sosial müdafiə, gənclərlə iş, təhsil, səhiyyə, hüquq, reabilitasiya, psixi sağlamlıq, sosial xidmətlərin təşkili və idarə olunması, icma əsaslı və beynəlxalq sosial proqramlar kimi müxtəlif sahələrdə fəaliyyət göstərən dövlət, qeyri-hökumət və özəl qurumlarda peşəkar sosial işçi, mütəxəssis, baş mütəxəssis və struktur bölmə rəhbərləri kimi fəaliyyət göstərə bilərlər.

**"Gənclərlə iş" ixtisaslaşması üzrə** məzunlar aşağıdakı sahələrdə qeyd olunan müxtəlif peşələrdə işləyə biləcəklər:

- gənclər və idman sahəsində dövlət və qeyri-dövlət strukturlarında gənclərlə iş üzrə mütəxəssis, proqram koordinatoru;
- gənclər təşkilatları (QHT), klublar və ictimai birliklərdə gənclər proqramları üzrə layihə rəhbəri, sosial işçi;
- təhsil müəssisələrinin gənclərlə iş bölmələrində gənclərlə iş üzrə kurator, psixososial dəstək mütəxəssisi;
- sosial-psixoloji dəstək və inkişaf mərkəzlərində psixososial məsləhətçi, gənclərlə fərdi iş üzrə terapevtik mütəxəssis.

**Əlavə 1**

## Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

### Gənclərlə iş ixtisaslaşması üzrə:

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| PTN 1. Elmi etika prinsiplərinə və akademik yazı standartlarına riayət etməklə sahə üzrə məlumatların təhlilini həyata keçirməyi, həmçinin müvafiq layihələrin planlaşdırılması, idarə olunması və nəticələrinin qiymətləndirilməsi prosesini səmərəli şəkildə təşkil etməyi bacaracaq. |
| PTN 2. Gənclərlə sosial işin qanunvericilik bazasının təhlilində istifadə olunan üsul və metodologiyanı araşdırmağı bacaracaq. |
| PTN 3. Gənclərlə sosial işə aid texnologiyaların istiqamətlərini, formalarını və üsullarını təhlil edəcək. |
| PTN 4. Sosial işdə etik davranışla bağlı sosial dəyər və normaları tətbiq etməyi bacaracaq. |
| PTN 5. Gənclərin məşğulluğu sahəsində sosial işin təkmilləşdirilməsi məqsədilə müxtəlif yeni çağırışları təhlil edəcək. |
| PTN 6. Gənclərlə psixoloji, sosial və iqtisadi işin əsas üsulları, formalarını və istiqamətlərini öyrənəcək. |
| PTN 7. Gənclərin sosial iştirakçılığını, özünütəsdiq və liderlik potensialını gücləndirmək məqsədilə fərdi və qrup yönümlü metodları tətbiq etməyi bacaracaq. |

| Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| Layihələrin idarə olunması fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etmə bacaracaq. |
| FTN 2. Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirmək üçün liderlik və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3. Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |

| |
|---|
| FTN 4. Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5. "Agile" (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək "Məhsul sahibi" və "Scrum Master" rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6. Layihə hesabatları, status yeniləmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət vasitəsilə layihe fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |

| Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək. |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |

| Gənclərlə işdə tədqiqat metodları fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Müasir dünyadakı sosial problemlərin və proseslərin mahiyyətini və məzmununu başa düşüb, bu sahədə baş verənləri izah etmək üçün sosioloji tədqiqat metodlarının tətbiq dairəsini müəyyənləşdirərək onlardan istifadə etməyi bacaracaq. |
| FTN 2. Kəmiyyət sosioloji tədqiqat metodlarının əsas prinsiplərini və konsepsiyalarını tətbiq edib; keyfiyyətli tədqiqat üçün əsas strategiyaların tətbiqinin xüsusiyyətlərini biləcək. |
| FTN 3. Keyfiyyət sosioloji tədqiqat metodlarının əsas prinsiplərini və konsepsiyalarını tətbiq edib; keyfiyyətli tədqiqat üçün əsas strategiyaların tətbiqinin xüsusiyyətlərini biləcək. |
| FTN 4. Yığılan kəmiyyət və keyfiyyət məlumatlarını düzgün təhlil etməyi və bu istiqamətdə əsas yanaşmalardan istifadə etməyi bacaracaq. |
| FTN 5. Müasir sosial prosesləri və siyasi institutların fəaliyyətini qiymətləndirmək, habelə mühakimələr və proqnozlar irəli sürməyi bacaracaq. |

| Gənclərlə işdə etik və peşəkar davranış fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. İş yerində etik davranış anlayışını və onun hüquqi-etik əsaslarını izah edə biləcək. |
| FTN 2. Peşəkar davranış prinsiplərinə uyğun qərar vermə bacarığı nümayiş etdirəcək. |
| FTN 3. Komanda daxilində əməkdaşlıq və ünsiyyət bacarığı göstərəcək. |
| FTN 4. Konflikt vəziyyətlərində etik yanaşmalar əsasında çıxış yolu tapa biləcək. |
| FTN 5. Peşə etikasına dair normativ sənədləri təhlil edə biləcək. |

| |
|---|
| FTN 6. İşəgötürən-tələbə münasibətlərində məsuliyyətli davranmağı bacaracaq. |

| **Gənclərlə sosial iş texnologiyaları fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Gənclərlə sosial işin tarixi, prinsipləri, siyasət və dəyərlərini izah edə biləcək. |
| FTN 2. Komanda işi, liderlik və kommunikasiya bacarıqlarını sosial iş fəaliyyətində effektiv istifadə edəcək. |
| FTN 3. Rəqəmsal texnologiyaların və onlayn platformaların gənclərlə sosial işdə tətbiq imkanlarını biləcək. |
| FTN 4. Beynəlxalq və yerli təcrübələri müqayisə edərək sosial iş texnologiyalarını qiymətləndirə biləcək. |
| FTN 5. Etik prinsiplər, təhlükəsizlik və əxlaq mövzularını sosial iş fəaliyyətində tətbiq edə biləcək. |
| FTN 6. Gənclərlə sosial iş texnologiyalarını konkret situasiyalarda tətbiq edir və onların effektivliyini qiymətləndirə biləcək. |

| **Gənclərlə işin təşkili metodları fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Gənclərlə işin nəzəri əsaslarını və metodoloji prinsiplərini dərindən izah edəcək. |
| FTN 2. Müasir gənclərin sosial-psixoloji xüsusiyyətlərini təhlil edir və onların tələbatlarına uyğun fəaliyyət istiqamətlərini müəyyənləşdirəcək. |
| FTN 3. Gənclərlə işdə istifadə olunan əsas metod və texnologiyaları seçir, tətbiq edəcək və onların effektivliyini qiymətləndirəcək. |
| FTN 4. Gənclərin sosiallaşması, asudə vaxtının təşkili və inkişaf proqramlarının hazırlanmasında metodik yanaşmaları tətbiq edəcək. |
| FTN 5. Beynəlxalq təcrübəni və milli xüsusiyyətləri müqayisə edir, gənclərlə işdə innovativ metodların tətbiqi imkanlarını müəyyənləşdirəcək. |
| FTN 6. Sosial layihələrin hazırlanması və həyata keçirilməsində gənclərin iştirakını stimullaşdırmaq üçün praktik bacarıqlara yiyələnəcək. |

| **Gənclərlə işin hüquqi tənzimlənməsi fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Tələbələr milli və beynəlxalq qanunvericiliyi müəyyən edib gənclərlə işin hüquqi tənzimlənməsini şərh edə biləcəklər. |
| FTN 2. Hüquqi sənədlərin hazırlanması sahəsində tələbələr müqavilələr, protokollar və digər sənədləri tərtib edə biləcəklər. |
| FTN 3. Gənclərin hüquqlarının qorunması məqsədilə tələbələr pozuntuların qarşısının alınması üçün tədbirlər planı hazırlaya biləcəklər. |
| FTN 4. Hüquqi vəziyyətləri analiz etmə bacarığı tələbələrə gənclərlə işdə qərar verməyə imkan yaradacaqlar. |
| FTN 5. Dövlət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq zamanı tələbələr hüquqi prinsiplərə riayət edə biləcəklər. |
| FTN 6. Etik və peşəkar davranışa riayət etməklə tələbələr gənclərlə işdə hüquqi tələbləri tətbiq edə biləcəklər. |

| Ümumi psixologiya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Psixologiya elminin nəzəri əsaslarını, istiqamətlərini və əsas kateqoriyalarını dərindən izah edəcək və onların tarixi inkişafını şərh edə biləcəklər. |
| FTN 2. İnsan psixikasının əsas qanunauyğunluqlarını, idrak, emosional–iradi və motivasiya proseslərinin xüsusiyyətlərini elmi şəkildə təhlil edəcəklər. |
| FTN 3. Müxtəlif psixoloji yanaşma və məktəbləri müqayisə edib, onların nəzəri və praktik əhəmiyyətini qiymətləndirəcəklər. |
| FTN 4. Şəxsiyyətin formalaşması, inkişafı və sosiallaşma mexanizmlərini izah edib, fərdi və sosial amillərin təsirini dəyərləndirəcəklər. |
| FTN 5. Müasir psixoloji tədqiqat metodlarını seçib, tətbiq edib və əldə olunan nəticələri elmi cəhətdən əsaslandıraraq şərh edəcəklər. |
| FTN 6. Psixoloji bilikləri professional fəaliyyətində, xüsusilə pedaqoji, sosial, idarəetmə və tətbiqi sahələrdə praktik məsələlərin həllinə tətbiq edəcəklər. |

| Gənclərlə işdə psixososial və iqtisadi dəstək yanaşmaları fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Gənclərə psixososial və iqtisadi dəstək göstərmə prinsiplərini izah edə biləcək. |
| FTN 2. Gənclərin fərdi ehtiyaclarını müəyyən edərək uyğun dəstək strategiyalarını seçə biləcək. |
| FTN 3. Sosial xidmət və resurslardan istifadə etməklə gənclərin rifahını artıracaq. |
| FTN 4. Gənclərlə işdə müdaxilə və dəstək proqramlarını planlayır və həyata keçirəcək. |
| FTN 5. Psixososial və iqtisadi dəstək proseslərinin nəticələrini qiymətləndirərək tövsiyələr hazırlayacaq. |

| Fərdi və qrup yönümlü liderlik fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Liderlik nəzəriyyələrini və fərdi ilə qrup yönümlü liderlik prinsiplərini izah edə biləcək. |
| FTN 2. Fərdi və qrup liderliyində effektiv ünsiyyət və motivasiya bacarıqlarını tətbiq edə biləcək. |
| FTN 3. Qrup işində liderlik rolu ilə problem həll etmə və qərar qəbul etmə bacarıqlarını nümayiş etdirəcək. |
| FTN 4. Fərdi liderlik qabiliyyətlərini inkişaf etdirərək şəxsi və peşəkar məqsədlərə nail olacaq. |
| FTN 5. Liderlik situasiyalarında etik prinsipləri qoruyaraq qrup performansını artırmaq üçün strategiyalar hazırlaya biləcək. |

| Gənclərin məşğulluğu və onun tənzimlənməsi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Gənclərin məşğulluğu ilə bağlı əsas nəzəri anlayışları və yanaşmaları izah edə biləcək. |
| FTN 2. Əmək bazarında gənclərin mövqeyini və məşğulluq problemlərini təhlil edə biləcək. |
| FTN 3. Gənclərin məşğulluğunu artırmaq üçün dövlət siyasəti və hüquqi tənzimləmələri şərh edə biləcək. |
| FTN 4. Gənclərin peşə hazırlığı və karyera inkişafı ilə bağlı proqram və layihələri qiymətləndirməyi bacaracaq. |
| FTN 5. Məşğulluq sahəsində gənclərin sosial-iqtisadi inteqrasiyasına dair praktiki tövsiyələr hazırlaya biləcək. |

| Gənclərin asudə vaxtının təşkili fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1. Gənclərin asudə vaxtı və rekreasiya anlayışının mahiyyətini, funksiyalarını və elmi-nəzəri əsaslarını mənimsəyəcək. |
| FTN 2. Müasir gənclərin asudə vaxtı davranışlarını, maraqlarını və asudə fəaliyyətlərinin sosial-mədəni təsirlərini təhlil edəcək. |
| FTN 3. Asudə vaxtın təşkilində sosial işin nəzəri modellərini, prinsiplərini və yanaşmalarını tətbiq edəcək. |
| FTN 4. Gənclərin asudə fəaliyyəti üçün sosial, mədəni, idman, yaradıcı və könüllü fəaliyyət yönümlü proqramların hazırlanması və planlaşdırılması bacarığını inkişaf etdirəcək. |
| FTN 5. Gənclərin asudə vaxtı ilə bağlı riskli davranışları (asılılıqlar, deviant meyillər və s.) qiymətləndirəcək və onların qarşısının alınması üçün müdaxilə strategiyaları müəyyənləşdirəcək. |

| Gənclərlə işdə beynəlxalq təcrübə fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1. Gənclərlə iş sahəsində müxtəlif ölkələrin beynəlxalq təcrübəsini izah edə biləcək. |
| FTN 2. Beynəlxalq standartlar və proqramlar əsasında gənclərlə işin təşkili və idarə olunmasını müqayisə edə biləcək. |
| FTN 3. Beynəlxalq layihələrdə gənclərin iştirakını planlaşdırmaq və həyata keçirmək bacarığına malik olacaq. |
| FTN 4. Beynəlxalq təcrübəni milli gənclər siyasəti və proqramlarına inteqrasiya etməyi bacaracaq. |
| FTN 5. Gənclərlə işdə beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi üçün tövsiyələr hazırlaya biləcək. |

| Azərbaycanda gənclərlə işin dövlət siyasəti fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1. Gənclərlə iş sahəsində müxtəlif ölkələrin beynəlxalq təcrübəsini izah edə biləcək. |
| FTN 2. Beynəlxalq standartlar və proqramlar əsasında gənclərlə işin təşkili və idarə olunmasını müqayisə edə biləcək. |
| FTN 3. Beynəlxalq layihələrdə gənclərin iştirakını planlaşdırmaq və həyata keçirmək bacarığına malik olacaq. |
| FTN 4. Beynəlxalq təcrübəni milli gənclər siyasəti və proqramlarına inteqrasiya etməyi bacaracaq. |
| FTN 5. Gənclərlə işdə beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi üçün tövsiyələr hazırlaya biləcək. |

| Gənclərlə işdə yumşaq bacarıqlar fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1. Gənclərlə işdə effektiv ünsiyyət və aktiv dinləmə bacarıqlarını tətbiq edə biləcək. |
| FTN 2. Qrup və fərdi fəaliyyətlərdə əməkdaşlıq və komanda ruhunu inkişaf etdirəcək. |
| FTN 3. Problemlərin həlli və qərar qəbul etmə prosesində yaradıcı və analitik düşüncədən istifadə edəcək. |
| FTN 4. Gənclərlə işdə emosional intellekt və konflikt idarəetmə bacarıqlarını nümayiş etdirəcək. |

| |
|---|
| FTN 5. Şəxsi və peşəkar inkişaf üçün özünüinkişaf və zaman idarəetmə bacarıqlarını tətbiq edəcək. |

| **Gənclərin submədəniyyəti və gender fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Gənclərin submədəniyyəti anlayışını, əsas nəzəri çərçivələri və submədəni qrupların sosial formalaşma mexanizmlərini mənimsəyəcək. |
| FTN 2. Müasir cəmiyyətdə müxtəlif gənclik submədəniyyətlərinin xüsusiyyətlərini və onların sosial davranış modellərini təhlil edəcək. |
| FTN 3. Gender anlayışının elmi əsaslarını, gender münasibətlərinin sosial konstruksiya olunması proseslərini və onların gənclər arasında təzahür formalarını izah edəcək. |
| FTN 4. Gənclər submədəniyyəti ilə gender rolları, gender stereotipləri və identiklik arasındakı qarşılıqlı təsiri qiymətləndirəcək. |
| FTN 5. Gender bərabərliyi, gender əsaslı ayrı-seçkilik və zorakılıq məsələlərini sosial iş kontekstində dəyərləndirəcək. |

| **Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2. Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3. Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4. Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifade etməyi öyrənəcək. |
| FTN 5. Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6. Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

**Əlavə 2**

**Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi**

| **Tədris fəaliyyətinin (fənnin) adı** | **Proqramın təlim nəticələri** | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **PTN 1** | **PTN 2** | **PTN 3** | **PTN 4** | **PTN 5** | **PTN 6** | **PTN 7** |
| Akademik yazı və etika | x | | | | | | |
| Layihələrin idarə olunması | x | | | | | | |
| Gənclərlə işdə tədqiqat metodları | x | | | | | | |
| Gənclərlə işdə etik və peşəkar davranış | | | | x | | | |
| Gənclərlə sosial iş texnologiyaları | | | x | | | | |
| Ali məktəb pedaqogikası və psixologiya | x | | | | | | |
| Gənclərlə işin təşkili metodları | | | | | | | x |
| Gənclərlə işin hüquqi tənzimlənməsi | | x | x | | | | |
| Ümumi psixologiya | | | x | | | | |
| Gənclərlə işdə psixososial və iqtisadi dəstək yanaşmaları | | | | | | x | |
| Fərdi və qrup yönümlü liderlik | | | | | | | x |
| Gənclərin məşğulluğu və onun tənzimlənməsi | | | | | x | | |
| Gənclərlə işdə beynəlxalq təcrübə | | | x | | | | |
| Gənclərlə işdə yumşaq bacarıqlar | | | | | | | x |
| Elmi-pedaqoji təcrübə | | | | | x | | |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________ **Namiq Qafarov**

**ADMİU-nun Sosial-mədəni fəaliyyət kafedrasının müdiri:** ____________ **Sevinc Əskərova**

**ADMİU-nun Kulturologiya fakültəsinin dekanı:** ____________ **Səyavuş Məhişov**